**Rövşən Şahbaz oğlu Muradov**

# Qalib Prezidentin liderlik fenomeninin təntənəsi

Azərbaycan Respublikasının prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev haqqında yazacağım fikirlərimi böyük qürur hissi ilə dünya şöhrətli yazıçı, diplomat, Beynəlxalq Aytmatov Fondunun prezidenti Çingiz Aytmatovun aşağıdakı kəlamları ilə başlamaq istəyirəm. O, İlham Əliyev cənabları "15" oktyabr 2003-cü il tarixində xalqımızın mütləq əksəriyyətinin dəstəyi ilə demokratik yolla Azərbaycan Respublikasının prezidenti seçildikdən bir müddət sonra jurnalistlərə verdiyi müsahibələrindən birində **İlham Əliyevi qloballaşan dünyanın lider etalonu adlandırmış və demişdir: "Ulu öndər əbədiyyətə qovuşanda xeyli nigarançılıq keçirdim. Lakin yerində layiqli varisi qaldığı üçün arxayınlaşdım. Qırğız və Azərbaycan türklərinin dəyərli "Ot kökü üstə bitər" deyimi var və çox fəxarətvericidir ki, bu deyim öz təsdiqini tapdı. 2003-cü ilin payızında Azərbaycan xalqı seçimini etdi - İlham Heydər oğlu Əliyevi özünə prezident seçəndə, mən buna öz xalqımın uğuru kimi sevindim... Bəli, bu gün İlham Heydər oğlu Əliyev öz xalqı, ölkəsi qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də ağır vəzifənin öhdəsindən bacarıqla gəlir, atasının müəyyən etdiyi və özünün son dərəcə praqmatik düşüncə, idarəetmə məharəti, liderlik istedadı ilə sahib durduğu siyasi kursu bacarıqla davam etdirir".** Bu böyük yazıçı və diplomatın **İlham Əliyevin** şəxsiyyəti haqqında söylədiyi fikirlərin Ulu öndər Heydər Əliyevin 2003-cü ilin oktyabr ayının 1-də İlham Əliyevin ölkə prezidentliyinə namizədliyini irəli sürərkən onun haqqında dediyi fikirləri ilə üst-üstə düşməsi bir azərbaycanlı ziyalısı kimi məndə qürur hissi doğurdu. Ulu öndər Heydər Əliyevin **Azərbaycan xalqına müraciətində deyilir ki: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir.** Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri **Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**

Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin müraciətini ürəkdən dəstəkləmiş və 2003-cü ilin 15 oktyabrında **İlham Əliyev cənablarını özünə prezident seçmişdir.** Ulu öndər Heydər Əliyev və dünya şöhrətli alim akademik Zərifə xanım Əliyeva kimi böyük şəxsiyyətlərin ailəsində doğulub boya-başa çatmış və onlardan dərs almış hələ 42 yaşı tamam olmamış Prezident seçilmiş İlham Əliyev cənabları üzərinə düşən bu çətin, çətin olduğu qədər də şərəfli vəzifənin məsuliyyətini dərk edərək 2003-cü il oktyabr ayının 31-də **dövlətə və xalqa sədaqət andı içərkən: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz Cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik"-deyərək Ulu öndər Heydər Əliyevin apardığı siyasəti davam etdirmək niyyətində olduğunu açıq-aşkar nümayiş etdirmişdir.** İlham Əliyev cənabları öz vədinə əməl edərək son 18 il ərzində atası Ulu öndər Heydər Əliyevin yolunu yaradıcılıq və ləyaqətlə davam etdirərək, öz istedadı, qətiyyəti, ölkəyə rəhbərlik və orduya sərkərdəlik etmək bacarığı sayəsində Azərbaycanı dünyanın ən dinamik inkişaf edən lider dövlətləri sırasına, onun ordusunun isə ən güclü ordusu olan ölkələrin sırasına çıxarmağa nail olmuşdur. Elə bunun nəticəsidir ki, o ata vəsiyyətini yerinə yetirərək Azərbaycan xalqını öz

*©Rövşən Şahbaz oğlu Muradov Azərbaycan Respublikası Milli Məclisi Aparatının "İqtisadi qanunvericilik" şöbəsi müdirinin müavini, 3-cü dərəcə dövlət müşaviri, i.e.d.,Azərbaycan Dövlət İqtisad Universitetinin Menecment kafedrasının professoru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

ətrafında dəmir yumruq kimi birləşdirməklə rəşadətli Azərbaycan ordusunun köməkliyi ilə dünyanın hərb tarixində ilk dəfə olaraq cəmi 44 günlük Vətən müharibəsində erməni ordusunu darmadağın, dünya erməni faşizmini və erməni mifini məhv edərək Ermənistanın torpaqlarımızın üzərindəki 30 ilə yaxın işğala son qoyub ədaləti bərpa etmiş, Azərbaycan xalqının böyük xalq olduğunu bütün dünyaya nümayiş etdirmiş, Azərbaycan xalqının adının **Qalib Xalq**, Azərbaycan ordusunun adını **Müzəffər Ordu**, öz adını isə **Yenilməz Sərkərdə** kimi əbədi olaraq tarixə qızıl hərflərlə yazdırmışdur. Əlbəttə, bu nailiyyətlərin əldə edilməsi asan yolla başa gəlməmişdir. Prezident İlham Əliyev atasının **"İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir"** dediyi kəlamı əsas götürərək dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən bir sıra qətiyyətli addımlar ataraq bir sıra fərman və sərəncamlar imzalayaraq Ulu öndərin inkişaf strategiyasını həyata keçirməyə başlamışdır. Onun 2003-cü il 24 noyabr tarixli **"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"**; 2004-cü il 11 fevral tarixli **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında"**; 2005-ci il 11 noyabr tarixli "Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında"; 26 oktyabr 2005-ci il tarixli "Azərbaycan Respublikasının məşğulluq strategiyasının (2006-2015-ci illər) təsdiq edilməsi haqqında"; 2009-cu il 14 aprel tarixli "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və 2014-cü il 27 fevral tarixli "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında; "29" yanvar 2019-cu il tarixli "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın təsdiq edilməsi haqqında və s. fərman və sərəncamları bu deyilənlərə əyani sübutdur.



Ölkə başçısının bu fərman və sərəncamlarında:

- Respublikamızın iqtisadi, sosial və demoqrafik inkişafı sahəsində əldə edilmiş uğurlu nəticələrin və müsbət meyllərin qorunub saxlanılması;
- Bu nəticələrin ardıcıl və daha da məqsədyönlü şəkildə davam etdirilməsi;
- Regionların tarazlı və üstün inkişafının təmin olunması;
- Əhalinin normal təkrar istehsalı prosesinin, sağlamlığının və rifahının yaxşılaşdırılması;
- Əmək qabiliyyətli əhalinin, o cümlədən qaçqın və köçkünlərin səmərəli məşğulluğunun təmin edilməsi ilə bağlı hökumət və dövlət orqanları qarşısında duran konkret vəzifələr və onların həyata keçirilməsi mexanizmləri öz əksini tapmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında bu tədbirlərin uğurla yerinə yetirilməsi nəticəsində respublikamızın əsas iqtisadi və rifah göstəricisi olan ÜDM-un orta illik artım sürəti hələ 2005-2010-cu illərdə orta hesabla 17,0 faiz təşkil etmiş və bu göstəriciyə görə ölkəmiz **dünyanın ən lider dövlətinə** çevrilmişdir.

2010-cu ildə BMT-nin İnsan İnkişafına dair növbəti hesabatında isə **ilk dəfə olaraq** Azərbaycan Respublikası dünyanın 169 ölkəsi arasında 67-ci yeri tutaraq **"orta inkişaf etmiş"** ölkələrdən **"yüksək inkişaf etmiş"** ölkələr qrupuna daxil edilmişdir. 2003-2020-ci illəri əhatə edən 18 il ərzində isə ölkəmizdə:

- ÜDM-un həcmi 10 dəfə artaraq 7,2 milyard manatdan 72,4 milyard manata;
- Adambaşına düşən məbləği isə 8,3 dəfə artaraq 873 manatdan 7262,8 manata;
- Büdcənin gəlirləri 20,3 dəfə artaraq 1,2 milyard manatdan 24,4 milyard manata;

- Xarici valyuta ehtiyatlarımız 32 dəfə artaraq 1,6 milyard ABŞ dollarından 51,2 milyard ABŞ dollarına;
- Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş vəsaitlərin məbləği 4 dəfə artaraq 4,3 milyard manatdan 17 milyard manata;
- Əhalinin gəlirləri 9,8 dəfə artaraq 5,7 milyard manatdan 55,7 milyard manata;
- Əhalinin hər nəfərinə düşən gəlirlərin məbləği 8 dəfə artaraq 701 manatdan 5587,6 manata;
- Xarici ticarətin həcmi 4,6 dəfədən çox artaraq 5,2 milyard ABŞ dollarından 24,2 milyard ABŞ dollarına;
- Ölkə iqtisadiyyatında muzdla işləyənlərin orta aylıq nominal əmək haqlarının məbləği isə 9,2 dəfə artaraq 77 manatdan 707,7 manata gəlib çatmışdır.

Bu illər ərzində əhalinin yoxsulluq səviyyəsi isə 45 faizdən 6,2 faizə düşmüşdür. Son 18 ildə Azərbaycan Respublikasında daxili və xarici mənbələrdən iqtisadiyyata 274 milyard ABŞ dolları məbləğində investisiya yönəldilmiş: 2,4 milyondan artıq yeni iş yerləri yaradılmış və onların 75 faizindən çoxu regionların payına düşmüş; yeni yaradılmış iş yerlərinin 1,6 milyonu və ya 66,6 faizini isə daimi iş yerləri təşkil etmişdir. Bu dövrdə ölkə iqtisadiyyatında məşğul olanların sayı 30,1 faiz artaraq 3747 min nəfərdən 4876,6 min nəfərə çatmış; iqtisadi fəal əhalinin işsizlik səviyyəsi isə 2,5 faiz azalaraq 9,7 faizdən 7,2 faizə düşmüşdür. Bazar münasibətlərinin formalaşması və inkişafına uyğun olaraq respublikamızda əhalinin məşğulluq quruluşunda da əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, əgər 1995-ci ildə ölkə iqtisadiyyatında məşğul olanların 56 faizi dövlət sektorunda 44 faizi isə qeyri-dövlət sektorunda çalışmışdırsa, bu göstəricilər dəyişərək 2020-ci ildə müvafiq surətdə 23 və 77 faiz təşkil etmişdir. Bu isə o deməkdir ki, ölkəmizdə yeni iş yerlərinin yaradılması daha çox özəl sektorun inkişafından asılıdır. Ona görə də Azərbaycan dövləti özəl sektorun, xüsusilə də kiçik biznesin inkişafına daha çox qayğı göstərir. Təkcə bunu demək kifayətdir ki, 2020-ci ildə Respublikamızın İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 908 sahibkara 127 milyon manat güzəştli kredit verilmiş və həmin kreditlərin hesabına 2700-dən çox yeni iş yerləri yaradılmışdır.



Bütün bunlar son 18 il ərzində ölkə iqtisadiyyatının dayanıqlı inkişafının rəqabətqabiliyyətli olmasının təmin edilməsində də mühüm rol oynamışdır. Tədqirəlayiq haldır ki, dünyanın ən tanınmış analitikləri, ekspertləri və nüfuzlu strateji elmi-tədqiqat mərkəzləri, aparıcı reytinq institutları ölkəmizin inkişaf modelini qabaqcıl və mütərəqqi nümunə kimi qiymətləndirmişlər. Burada xüsusi olaraq onu da qeyd etmək lazımdır ki, **bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, onun rifahı, təhlükəsizliyi və sağlamlığı hər şeydən üstündür-deyən** möhtərəm prezidentimiz İlham Əliyev cənablarının siyasi kursunda sosial sahə daim prioritet sahə kimi onun diqqət mərkəzində olmuşdur. Təsadüfi deyildir ki, onun **rəhbərliyi və bilavasitə təşəbbüsü ilə əhalinin sosial təminatı ilə bağlı dünyanın heç bir ölkəsində rast gəlinməyən kompleks xarakterli tədbirlər işlənib hazırlanır və uğurla həyata keçirilir.** Prezident İlham Əliyev cənabları və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində 300 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmiş və onların məişət şəraiti yaxşılaşdırılmışdır. Son iki-üç il ərzində bu diqqət və qayğı daha da artırılmışdır. 2021-ci ilin oktyabr ayınadək 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillə təmin edilmiş və ilin sonunadək onlara daha 3 min mənzilin verilməsi nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev cənablarının 2021-ci ilin yanvarında imzaladığı sərəncama əsasən isə

2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlilləri mənzil və fərdi evlə təmin olunacaqlar.

Ölkə əhalisinə olan qayğı və diqqət son iki-üç il ərzində daha da artmışdır. Bu illər ərzində ölkə əhalisinə ən böyük sosial paket təqdim olunmuş və uğurla icra edilmişdir. Həmin sosial paketin əhatə dairəsi çox geniş olub 4 milyon 200 min nəfər insanı əhatə etmişdir. Bu dövrdə minimum əmək haqqı 2 dəfə; bəzi müavinətlər 50 faiz, bəziləri 2 dəfə; pensiyalar isə 70 faiz artmışdır. Axır iki il ərzində sosial ödənişlər 60 faiz, yəni 2 milyard 392 milyon manat; pensiya xərcləri isə son üç il yarım ərzində 1 milyard 591 milyon manat, sosial müavinətlər üzrə xərclər 300 milyon manat artmış: minimum pensiya 110 manatdan 200 manata qalxmış, orta aylıq pensiya 60 faiz; yaşa görə pensiya 53 faiz; əlilliyə görə pensiya 64 faiz; ailə başçısını itirməyə görə pensiya isə 75 faiz çoxalmışdır. Diqqətəlayiq haldır ki, m**inimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan Respublikası hazırda MDB məkanında birinci yerdədir.**

Burada ayrıca olaraq vurğulamaq istərdik ki, dünyanın bütün ölkələrini çıxılmaz vəziyyətə salmış “Covid-19” pandemiyası ilə mübarizədə Azərbaycan prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ilk gündən atdıqları uğurlu addımlar, həyata keçirdikləri strategiya bütün dünya tərəfindən **Azərbaycan modeli kimi** qəbul edilmişdir. Azərbaycan xalqının mənafeyi nəzərə alınmaqla onlar tərəfindən vaxtında görülmüş qabaqlayıcı tədbirlər, atılmış qətiyyətli addımlar **Azərbaycanın pandemiya ilə mübarizədə uğurlu nəticələrə yiyələnməsinə imkan verdi.** Bu gün biz fəxrlə deyə bilərik ki, pandemiya ilə bağlı **iqtisadiyyatın tənəzzül keçirməsi səbəbindən Beynəlxalq Valyuta Fonduna kömək üçün müraciət etmiş 150-dək ölkə arasında Azərbaycanın adı yoxdur. Əksinə, respublikamız ilk gündən yüksək humanizm nümayiş etdirərək pandemiyadan sarsılmış bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara maliyyə dəstəyi göstərib. Qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olaq. Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycan dövlətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirmiş və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır.**



Belə bir ağır mərhələdə həyata keçirilən sosialyönümlü islahatlar dövlətimizin başçısının inqilabi islahatların təşəbbüskarı və lideri olduğunu bir daha sübut edir. Dövlət başçımızın tapşırığı və tövsiyələrinə əsasən həssas təbəqələrə dəstək verildi, onların hər birinə 190 manat birdəfəlik ödənişlər ayrıldı və bu dəstəyin əhatə etdiyi insanların sayı xeyli genişləndirildi. Respublikamızın dövlət sektorunda çalışan 900 min nəfər insanın əmək haqları tamamilə; özəl sektorda çalışan 700 min nəfər insanın isə əmək haqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənilməsi; ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəniş edilməsi, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün yeni evlərin tikilməsi, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borclarının müəyyən şərtlər civarında silinməsi, yanğından zərər çəkmiş sahibkarlara kompensasiyanın ödənilməsi; şəhid ailələrinin üzvlərindən ibarət 7 min 900 nəfərə 15 min 700 manat sosial ödəniş (prezidentin aylıq təqaüdü, pensiya və ya müavinət) edilməsi: 2 min 169 qaziyə əlillik və sosial ödənişlrəin təyin edilməsi; 44 günlük Vətən müharibəsi dövründə Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan ərazilərinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması üçün indiyədək 113,7 milyon manat vəsait xərclənməsi və özünüməşğulluq proqramı və ödənişli ictimai iş yerlərinin yaradılması hesabına on minlərlə insanlarımızın səmərəli məşğulluğunun təmin edilməsi **Azərbaycanda insan amilinin nə qədər önə çəkildiyini təsdiq edir.** Təkcə bunu demək kifayətdir ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayından başlanmış “Məşğulluq marafonu”-na noyabr ayının axırına 579 işəgötürən (o

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

cümlədən, 306 dövlət, 273 özəl) qoşularaq 3556 vakansiya təqdim etmişlər ki, bunun nəticəsində də 1140 nəfər (o cümlədən 963 qazi və 177 şəhid ailəsi üzvü) işlə təmin olunmuşlar. Bu marafonda məqsəd şəhid ailəsi üzvlərini və qazilərimizi işlə təmin etməkdən ibarətdir. Burada ədalət naminə onu da qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Prezident İlham Əliyev cənablarının 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dost Agentliyinin və buna uyğun olaraq Dost Mərkəzlərinin yaradılması da **unikal hadisə** kimi diqqəti cəlb edir. Əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ üsulların tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə yaradılmış bu mərkəzin qeyd edilən problemin həllindəki rolu danılmazdır. Bu da danılmaz həqiqətdir ki, Prezident İlham Əliyev cənablarının bütün sahələrdə həyata keçirdiyi siyasətin **uğurla başa çatmasında onunla çiyin-çiyinə çalışan və xalqımızın sevimlisinə çevrilmiş Azərbaycanın qeyrətli və əfsanəvi qızı** Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri **xanım Mehriban Əliyevanın misilsiz xidmətləri vardır.** Dahi rəhbərimiz Heydər Əliyevin adını daşıyan fondun prezidenti kimi səlahiyyətlərinə başladığı ilk gündən xanım Mehriban Əliyeva cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşmış və onların həlli üçün əlindən gələni əsirgəmir. Azərbaycan xalqının bu əfsanəvi qızı, xanım Mehriban Əliyeva cəmiyyəti narahat edən problemlərin həllində xüsusi əzmkarlıq göstərən, bir çox yeni, humanist və xeyirxah təşəbbüslərin müəllifi və icraçısı kimi çıxış edən dövlət xadimi kimi nəinki ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanmış; Azərbaycan dövlətinin və bir sıra ölkələrin ən yüksək mükafatlarına layiq görülmüşdür. Xanım Mehriban Əliyeva ölkəmizin adını bütün dünyada yüksəklərə qaldırmış, millətimizin və Azərbaycan qadınının ləyaqət və şərəfini hər yerdə ucaltmış, vətənimiz Azərbaycana çoxlu dostlar qazandırmışdır. **Təsadüfi deyildir ki,** onun fəaliyyətini yüksək qiymətləndirən Rusiya Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin sədri, deputat Leonid Slutski Heydər Əliyev Fondunun 15 illik yubileyi münasibətilə jurnalistlərə verdiyi müsahibəsində demişdir ki: **"Heydər Əliyev Fondu tarix, fəlsəfə, ədəbiyyat, incəsənət sahələrində humanitar layihələr həyata keçirən iri dünya fondları sırasına daxil olub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti və layihələrinin əvəzolunmaz ilhamvericisi Mehriban xanım Əliyevanın qarşısında baş əyirəm. Onun adı bu gün respublikada yoxsulluğun aradan qaldırılması, enerji cəhətdən müstəqilliyinin təmin olunması fondun Ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin adları ilə yanaşı müasir Azərbaycanla ayrılmaz şəkildə bağlıdır. Mehriban Əliyeva Bakını dünyanın humanist əməkdaşlıq paytaxtlarından birinə çevirməyə nail ola bilibdir"** (www.respublica-news.az).

Bu gün Azərbaycan xalqı Azərbaycan Respublikasının Qalib Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə **özünün ən xoşbəxt günlərini yaşayır. İndi başlıca vəzifə ölkəmizin iqtisadi və hərbi qüdrətini daha da artırmaqla yanaşı erməni faşistlərinin işğalından azad edilmiş ərazilərimizi bərpa etmək, torpaqlarımızı erməni vandallarının basdırdıqları saysız-hesabsız minalardan təmizləmək və həmin ərazilərdən didərgin salınmış insanlarımızı doğma ata-baba yerlərinə qaytarıb onların layiqli məskunlaşmalarını təmin etməkdən ibarətdir.** Bir tərəfdən "Covid-19" pandemiyasının, digər tərəfdən də Azərbaycan-Ermənistan müharibəsinin mənfi sosial-iqtisadi nəticələri və çətinliklərinə baxmayaraq xalqımız öz Müzəffər Prezidenti İlham Əliyevin ətrafında daha da sıx birləşərək geniş quruculuq işləri ilə, ilk növbədə isə işğaldan azad olmuş torpaqlarımızın abadlaşdırılması, yenidən qurulması kimi müqəddəs vəzifənin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yerinə yetirilməsi ilə məşğuldur. 2021-ci ildə həmin ərazilərin bərpa edilməsinə 1,2 milyard manat vəsait ayrılmış və 2022-ci ildə bu vəsaitin məbləğinin 2.2 milyarda çatdırılması nəzərdə tutulmuşdur. Bütün bunlar ona görə mümkün olmuşdur ki, **Azərbaycan heç zaman indiki kimi güclü olmamışdır. İndi Azərbaycan inkişaf, tərəqqi, sabitlik və qalib ölkə kimi dünyada şöhrət qazanmışdır.** 2020-ci ildə nüfuzlu Beynəlxalq qurumların reytinqlərində respublikamız iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yerə layiq görülmüşdür. Dünya Bankının "Doinq Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşmış dünyanın 10 ən islahatçı ölkələri sırasına daxil edilmişdir. Eyni zamanda Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən elan etdiyi Azadlıq İndeksinə görə də Azərbaycan dünya ölkələri arasında 38-ci pilləyə yüksəlmişdir.

Müzəffər ölkə başçımız İlham Əliyev cənablarının özünün də dediyi kimi: **"Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün əlbəttə ki, bizim iqtisadi imkanlarımız olmalıdır".** Bunu cari ilin iqtisadi nəticələri və "Zəfər büdcəsi" kimi tarixə düşəcək 2022-ci ilin dövlət büdcəsində öz əksini tapmış hədəflər bir daha təsdiq edir. "Covid-19" pandemiyasının və Azərbaycan-Ermənistan müharibəsinin yaratdığı sosial-iqtisadi çətinliklərə baxmayaraq, 2020-ci ildə 3 faizdən çox azalan qlobal ÜDM 2021-ci ilin yanvar-sentyabr aylarında 4 faiz artmış və ilin sonunadək 5,9 faiz artacağı gözlənilir, ölkəmizin strateji valyuta ehtiyatları isə 53 milyard ABŞ dollarını ötüb keçmişdir. "Zəfər büdcəsi" kimi tarixə düşəcək Dövlət büdcəsinin gəlirləri ilk dəfə olaraq 2022-ci ildə 26,8 milyard manat, xərcləri isə 29,9 milyard manat təşkil edəcəkdir. Büdcədə sosial xərclərin payı 46,8 faizə çatdırılacaq və bu 2021-ci ilə nisbətən 13,5 faiz və ya 1 milyard 650 milyon manat artacaqdır. Təhsil sahəsinə 3 milyard 884 milyon manat; səhiyyə sahəsinə icbari sığorta öhdəlikləri də nəzərə alınmaqla 1 milyard 789 milyon manat ayrılmış; Prezident İlham Əliyevin təşəbbüsü ilə iqtisadi artıma və məşğulluğa dövlət investisiya proqramı üçün ayrılan vəsaitin həcmi 850 milyon manat artırılaraq 2,8 milyon manata çatdırılacaq, hərbi sahəyə ayrılan vəsaitin məbləği isə 2 milyard 935 milyon 290 min manat təşkil edəcəkdir. Halbuki, məğlub düşmən ölkə Ermənistanın isə 2022-ci ildəki dövlət büdcəsinin gəlirləri cəmi 3 milyard 880 milyon ABŞ dolları və ya Azərbaycan dövlət büdcəsinin gəlirlərindən 4 dəfə az, hərbi sahəyə ayırdığı vəsaitlərin məbləği isə cəmi 687 milyon 969 min ABŞ dolları və ya yenə də Azərbaycanın hərbə ayırdığı vəsaitlərin məbləğindən 4 dəfə az olacaqdır (www.azerbaijan-news.az).

Bütün bu nailiyyətlərinə görə Azərbaycan xalqı qalib liderimiz - Prezident İlham Əliyev cənablarına minnətdardır. Onun liderlik fəaliyyətinin nəticəsində Ulu öndərimiz Heydər Əliyevin 17 noyabr 1990-cı ildə Naxçıvan MR-da ucaltdığı bayrağımız indi erməni faşistlərinin 30 illik işğalından azad etdiyimiz Qarabağda və Şərqi Zəngəzurda qürurla dalğalanmaqdadır. İndi bütün türk dünyası haqlı olaraq Prezident İlham Əliyevlə fəxr edir və onu türk dünyasına zəfər sevinci bəxş edən lider, yenilməz sərkərdə kimi qəbul edir. Təsadüfi deyildir ki, xalqımızın şanlı oğlu İlham Əliyev cənabları bu ilin noyabr ayının 12-də İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) dövlət başçılarının VIII zirvə görüşündə "Türk Dünyasının Ali Ordeni"-ni ilə təltif edilmişlər. Bu mərasimdə çıxış edən Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan həmin ordeni sevimli prezidentimiz İlham Əliyev cənablarına təqdim edərkən demişdir: "Hörmətli Prezident, əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev: Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsidir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir... Qarabağ zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb.”. Bir azərbaycanlı ziyalısı olaraq mən ölkə başçımızı bu misilsiz uğurlarına və bu ilin 24 dekabrında tamam olacaq 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, Ulu Tanrımızdan ona möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xalqımızın başı üstündən əksik etməməsini arzu edirəm. Müzəffər Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənablarının uğurla həyata keçirdiyi dayanaqlı, innovativ və inkluziv yanaşmalara əsaslanan inkişaf strategiyası nəticəsində yaxın gələcəkdə Azərbaycan Respublikası dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkəsinə və ən qüdrətli ordusu olan dövlətə çevirəcək, əhalisinin rifah səviyyəsi isə ən yüksək səviyyəyə qalxacaqdır. Amin!

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 02.12.2021.***
***Çapa qəbul olunub: 06.12.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*